innovasiyalar təşkil edir. Qloballaşmaya məhkum qalan inkişaf etmiş ölkələrin iqtisadi inkişafı innovasiya fəaliyyəti ilə yaxından əlaqəlidir. Çünki planetdə mövcud məhdud resurslardan səmərəli istifadə edilməsi daha çox innovasiya yolu ilə mümkündür.

**Ədəbiyyat:**

1. Robert Wuebker , Zoltan J. Acs, Richard Florida “The Globalization of Innovation and Entrepreneurial Talent: The Changing Context of Venture Capital Investment”.

2. Mühazirə 1. sahibkarliq və innovasiya: maliyyə vəsaitlərinin müvəffəqiyyətlə cəlb edilməsi üçün istiqamətverici amillər. URL: https://www.culturepartnership.eu/az/publishing/crossovers-and-fundraising/part-1 (accessed 10.10.2021).

## AZƏRBAYCANDA INNOVASIYA SAHIBKARLIĞININ INKIŞAF ŞƏRAITININ TƏHLILI

*Qarayev Maarif Şərif Oğlu, Iqtisad elmləri namizədi, dosent*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Son illərdə Azərbaycanda innovasiyalı iqtisadiyyata keçidi təmin edən tədbirlərin təşviqi və realaşdırılması strateji proqram və sənədlərdə, o cümlədənAzərbaycan:2020 пələcəyə вaхış İnkişaf konsepsiyası və müxtəlif sektorları əhatə edən Strateyi Yol Xəritəsində öz əksini tapmışdır.

Qloballaşdırma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yenidən qurulması və istehsal sahəsində tətbiqi ölkələr üçün yeni problemlər yaradır. Bu baxımdan İnnovasiya fəaliyyətinin stimullaşdırılması və səmərəliliyinin artırılması, innovasiya strukturu çərçivəsində kiçik və orta sahibkarlıgın inkişafı üçün zəruri şəraitin yaradılması və elmi-tədqiqat bazasının inkişafı şox mühümdür.

Azərbaycanda hər il innovasiya müsabiqələri təşkil olunur. İnnovasiya layihələrinin qəbulunu asanlaşdırmaq üçün Asan Xidmətin İdeya bank platformasından istifadə olunur. Pandemiya səbəbindən İKT əsasında yeni innovasiyalı iqtisadiyyat sektorları inkişaf etdikcə, iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq, respublikada qeyri-neft sektorunun daha surətli inkişafına nail olmaq, neft-qaz ixracatından asılılığı azaltmaq, iqtisadiyyatın davamlı və tarazlı inkişafını təmin etmək üçün yüksək texnologiyalar sahəsi inkişaf etdirilməlidir. Yüksək texnologiyaların transferi, elmi-innovativ məhsulların kommersiyalaşdırılmasının genişləndirilməsi, investisiya qoyuluşlarının səmərəliliyini artırır, həm də sahələrarası strukturun optimallığını təmin edir.

Işğaldan azad olunmuş ərazilər üzrə Azərbaycanda regional inkişaf mərkəzlərinin təmin olunması müvafiq bölgələrdə iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrində ixtisaslaşmanın dərinləşdirilməsi hesabına ümumi iqtisadi artımın təmin olunmasına şərait yaradacaqdır.

Bugün Azərbaycan dünya iqtisadi sistemində xammal ixracatçısı olmağın səviyyəsini azaltmaq məqsədilə iqtisadiyyatın diversifikasiyasını sürətləndirməli, qeyri-neft sektorunun sürətli inkişafı və innovasiya əsaslı inkişafa nail olmalıdir. Ona görə də innovasiyaya, elmə, informasiyaya, biliyə əsaslanan innovasiyalı iqtisadiyyat sektorlarının problemləri dərindən araşdırılmalıdır. Belə ki, müasir şəraitdə ölkələrin

inkişafı informasiya vı elmtutumlu sahələrin inkişafından çox asılıdırdır [2]. Bu sahədə tədqiqat işlərinin olmasına baxmayaraq, innovasiya sahibkarləğının inkişaf etdirilməsi 4-cü nəsil Sənaye inqilabının tələbləri nəzərə alınmaqla, yeni idarəetmə prinsipləri və modelləri, yeni qərarqəbuletmə mexanizmləri işlənməklə həyata keçirilməlidir.

Dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda da elm-təhsil sferasının maliyyələşmə mexanizmi təkmilləşməli, kicik, orta və iri müəssisə və koorporasiyalar texnoloji innovasiyaların əsas obyekti kimi götürülməlidr. Qlobal iqtisadiyyatda böyük iqtisadi güc vahidlərinin yeni yaranan bazarlara doğru yerdəyişməsi Azərbaycan üçün də gözlənilən və mühüm məsələlərdəndir [1]. Bu məsələlərin həll olunması nəticəsində respublikamızın iqtisadiyyatı, xarici təsirlərə daha davamlı olacaq, Azərbaycan iqtisadiyyatı səmərəlilik əsaslı modeldən innovasiya əsaslı modelə keçəcək, nəticədə adambaşına düşən gəlir səviyyəsinə görə Şərqi Avropa ölkələrinin göstəricilərinə yaxınlaşacaqdir. 2025-ci ilin sonuna Azərbaycan iqtisadiyyatında ümumi əlavə dəyərin dörddə üçündən çoxu qeyri-neft sektorunun payına düşəcəkdir.Qeyri-neft sertorunun daha səmərəli inkişafı ücün ənənəv isahələrlə yanaşı yeni iqtisadi sahələr də inkişaf etdirilməlidir.

Qarabağ və onun ətraf rayonlarının yaxın 10-15 il ərzində yenidən qurulması ən prioritet istiqamətlərdən hesab olunur. Bölgəyə xarici kapitalın cəlb olunması, innovasiya sahibkarlığı sahəsində görülən işlər həm Qarabağ, həm də onun ətraf rayonlarında ənəənəvi iqtisadiyyat sahələri ilə yanaşı qeyri-neft sektorunun inkişafına gətirəcəkdir. Bütün görülən işlərlə yanaşı təhlil göstərir ki, respublikamızda innovasiyalı iqtisadiyyatin payı ümumi iqtisadiyyatda çox aşağıdır.

2020-cı ildə Qlobal İnnoyasiya İndeksinin hesabatı üzrə130-a yaxın ölkədə innovasiyaların effektivliyi qiymətləndirilmiş, həmin hesabatlarda 82 ci reytinqdə 0-100 şkalasında Azərbaycan 27,23 bala malik olmuşdur. Azərbaycan qazandığı ballara görə aşağıdakı yerlərdə qərarlaşmışdır: biznes mühiti və hüquqi tənzimləmə üzrə 59-cu yer, insan kapitalı və tədqiqat üzrə 89-cu yer, infrastruktur üzrə 85- ci yer, bazar üzrə 38-ci yer, biznes üzrə 96-cı yer, bilik və texnologiyaların nəticələrinə görə118-ci yer, kreativ nəticələrə görə 65- ci yer. Qlobal innovasiya indeksinin göstəricilərindən görmək olar ki, innovasiya sahibkarlığının inkişafı üçün münbit şərait yoxdur. Bunun əsas səbəblərindən biri də sahibkarlıq haqqında biliklərin ümumilikdə qənaətbəxş olmamasıdır. Ona görə də Qərbdə olduğu kimi Sahibkarlıq Universitetləri modellərinin Azərbaycanda da tətbiq etmək məqsədəuyğun olardı. Əsas məqsəd innovasiyaları sahibkarlıq subyektlərinə çevirmək və ölkənin iqtisadi inkişafına və innoativ ekosisteminin yaradılmasınasına, həmçinin maliyyə imkanlarının artmasına müsbət təsir göstərmək və elmin kommersiyalaşdırılmasına nail olmaqdır. Fikrimizcə, yaxın zamanlarda sahibkarlıq üzrə ən yaxşı magistr proqramların hazırlanması vacibdir.

## Ədəbiyyat:

1.Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri. Bakı ,6 dekabr 2016-cı il. URL: htts//president.azticles/22382 (accessed 17.10.2021).

2. Леготин И.А. Знания врамаках цифрвой економики как фактор развитияинформационного сектора. *Вестник Академии знаний.* 2019. №35(6). С.193-195.